# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/20** **25 avqust 2021-ci il**

**Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən “Özəl sektorda anti-korrupsiya standartları” mövzusunda birgə seminar-müşavirənin keçirilməsinə dair**

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə əldə edilmiş razılığa əsasən 2021-ci ilinin oktyabr-noyabr ayları ərzində təşkil edilməsi nəzərdə tutulmuş “Özəl sektorda anti-korrupsiya standartları” mövzusunda seminar-müşavirəyə hazırlıq və onun yüksək səviyyədə keçirilməsi məqsədilə **qərara alıram:**

1. “Özəl sektorda anti-korrupsiya standartları” mövzusunda seminar-müşavirəyə hazırlıq və onun yüksək səviyyədə keçirilməsi məqsədilə Auditorlar Palatasında aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

**İşçi qrupunun rəhbəri:**

Nəcəf Talıbov – Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri

**İşçi qrupunun tərkibi:**

Altay Cəfərov – Auditorlar Palatası Şurasının üzvü, sərbəst auditor;
Elnur İbrahimov – Auditorlar Palatasının Auditin hüquqi tənzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsinin rəisi;
Fəqan Qarayev – Auditorlar Palatası sədrinin müşaviri;
Misir Əhmədov – “Azərbeynəlxalq audit xidməti” məhdud məsuliyyətli cəmiyyətinin direktor-auditoru;
Səftər Vəlizadə – “SR Audit Solutions” məhdud məsuliyyətli cəmiyyətinin direktor-auditoru;
Şəfiqə Əsgərova – Auditorlar Palatasının Maliyyə təminatı və xarici əlaqələr idarəsinin Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdir-müavini.

2. İşçi qrupuna tapşırılsın ki:

2.1. Bir həftə müddətində seminar-müşavirənin təşkilinə dair öz təkliflərini təqdim etsinlər;

2.2. İki həftə müddətində Auditorlar Palatası tərəfindən seminar-müşavirədə çıxış və məruzələr barədə təkliflərini təqdim etsinlər;

2.3. Seminar-müşavirə barədə Auditorlar Palatasının üzvlərinin məlumatlandırılması və onların tədbirlərdə iştirakı təmin edilsin;

2.4. On gün müddətində seminar-müşavirə barədə məlumat-dəvət məktubunun maraqlı tərəflərə göndərilməsi təmin edilsin.

3. Bu sərəncamın icrasına nəzarət Auditorlar Palatasının icraçı direktoru S.Gülməmmədova həvalə edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**